# QEYRİ-ÜZVİ MADDƏLƏRİN TƏSNİFATINA ƏSASƏN MÜSTƏQİL İŞLƏRİN SEÇİLMƏSİ

**Z.H. Nağızadə**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Qeyri-üzvi birləşmələrin ayrı-ayrı siniflərinin tədrisi zamanı şagirdlərin müstəqil, fəal və yaradıcı şəkildə işlərinin təşkili üçün geniş şərait yaratmaq olar. Müstəqil işlərin təşkili zamanı şagirdlərin fərdi psixi və fiziki hazırlıq səviyyəsi, eləcə də bilik səviyyəsi nəzərə alınmalıdır. Bu prinsipin əsas götürülməsi ilə əlaqədar olaraq şagirdlərin müstəqil iş formaları müxtəlif ola bilər. Belə ki, qeyri-üzvi maddələrin təsnifatına görə şagirdlərə həm motivasiya xarakterli, həm də sərbəst işləmək qabiliyyətini, yaradıcılığını inkişaf etdirən və formalaşdıran axtarış- tədqiqat işinin tapşırılması məqsədəuyğundur. Bu halda təsnifata müvafiq olaraq oksidlər, əsaslar, turşular, duzlar sinfinin hər birinin özünəməxsus qanunauyğunluqlarının araşdırılması, oxşar və fərqli cəhətlərinin müəyyən edilməsi, spesifik xüsusiyyetlərinin qeyd olunması və s. kimi işlər şagirdlər tərəfindən tədqiq olunur.

Məlumdur ki, qeyri- üzvi maddələr dörd sinifə bölünür:



Göstərilən  siniflər əsasında şagirdlərin müstəqil işlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) Oksidlərin bir qrupunun su ilə reaksiyaya girib qələvi və turşu əmələ gətirə bilməsinin araşdırılması;
b) Qələvilərin suda həll olmayan əsaslarla (amfoter xassəli olanlar) qarşılıqlı təsirdə olub- olmamasının müəyyənləşdirilməsi;
c) Turşuların müxtəlif metallarla münasibətinin aydınlaşdırılması;
d) Müxtəlif duzların suda həll olma qabiliyyətinin yoxlanılması və s.

Bu təsnifat üzrə şagirdlər onlara məlum olan birləşmələrə aid kimyəvi təcrübələrin həm fərdi, həm də qrup şəklində həyata keçirilməsi zamanı müstəqil iş qabiliyyətlərinə yiyələnmiş olurlar, maddələrlə, kimyəvi qablarla və laboratoriya avadanlıqları ilə işləmək bacarıqlarını mənimsəyirlər. Laboratoriyada şagirdlərin həyata keçirtdikləri praktik işlərin qrafik formasına misal:

| Əsasların formulu və adları | Fiziki xassələri | Kimyəvi xassələri | Alınması |
|---|---|---|---|
| Mis(II) hidroksid (formulu göstərilməlidir) | Mavi rəngli bərk maddədir, suda həll olmur. | Reaksiya tənlikləri | Reaksiya tənlikləri |
| Dəmir (III) hidroksid (formulu göstərilməlidir) | Qonur rəngli bərk maddədir, suda həll olmur. | Reaksiya tənlikləri | Reaksiya tənlikləri |

Şagirdlərin bu mövzuda tədqiqatçılıqla bağlı müstəqil işləri isə müxtəlif mənbələr (dərslik, digər ədəbiyyatlar, laboratoriya və nümayiş təcrübələri və s.) üzrə təşkil oluna bilər.

Tədqiqatçılıq metodu əsasən aşağıdakı əlamətləri ilə xarakterizə olunur: problem situasiya yaradılması, işçi fərziyyələrin irəli sürülməsi, onun yoxlanılması üçün plan tərtib edilməsi, müvafiq ümumiləşdirmə aparılması və nəticə çıxarılması, əməliyyatların yerinə yetirilməsi və s. Hazırki vəziyyətdə müəllim dərslərini əyaniləşdirmək üçün texniki təlim vasitələrindən istifadə etmək məcburiyyətində qalır. Bu məqsədlə  öz peşəsini sevən hər bir kimya müəllimi dərslərini əyaniləşdirmək üçün axtarışda olmalı, şagirdlərin axtarıcılıq qabiliyyətindən istifadə etməlidirlər.

Məsələn, şagird qeyri- üzvi birləşmələrin mühüm sinifləri olan oksid, əsas, turşu və duzların bir- birinə çevrilmələrini müəyyənləşdirmək üçün apardığı tədqiqatın nəticələrini aşağıdakı ümumi sxem vasitəsilə göstərə bilər:




Lakin şagirdlərin bu mövzuda müstəqil fəaliyyətləri yalnız laboratoriya işi və tədqiqat aparmaqla məhdudlaşmır. Şagirdlər də bu maddələrin xarici əlamətləri haqqında (aqreqat halı, iyi, rəngi və i.a) konkret nəticələri müstəqil iş üsullarından biri olan paylama materialı üzərində iş zamanı əldə edə bilərlər. Bu zaman qeyri-üzvi maddələrin müxtəlif siniflərinin hər birinə aid bir neçə nümunə şagirdlərin sayına uyğun olaraq müxtəlif qutulara yerləşdirilir və stolların üzərinə qoyulur. Müəllim ilk öncə maddələrin xassələri haqqında məlumat verir, daha sonra isə şagirdlərin özünə həmin maddələrə baxmağı və fiziki xassələrinə diqqət yetirməyi təklif edir.

Paylama materialı üzərində iş üsulunun üstünlüyü ondan ibarətdir ki, şagirdlər dərsdə qeyri- üzvi maddələrin müxtəlif siniflərinə aid olan müxtəlif maddələrlə tanış olur, onlarda hər bir maddənin fiziki xassələri haqqında təsəvvürlər formalaşır. Əks təqdirdə isə şagirdin biliyində formalizm əmələ gəlir, müşahidə etmək üçün heç bir maddə verilmədikdə, onlar maddə haqqında olan bütün məlumatları yalnız müəllimdən eşidirlər və yaxud kitabdan oxuyurlar.

## İstifadə edilmiş ədəbiyyat:

1. Ə.Ö. Əbdürrəhimov, "Kimya tədrisi üsulu", Bakı – 1959;
2. R.J.Əliyev., Ə.T.Əzizov , "Kimyanın tədrisi metodikası, Bakı - 2005;
3. Babayev R.Ə. "Kimyadan şagirdlərin müstəqil işləri", Bakı, 1983.

*З.Х.Нагизаде*

**Подборка самостоятельных работ на основе классификации неорганических веществ**

**РЕЗЮМЕ**

Самостоятельные методы работы студентов широко используются при преподавании важных занятий по неорганическим соединениям. Физико-химические свойства оксидов, основных, кислот и солей, общие закономерности, методы заготовки объясняются таблицами, схемами.

Знания, навыки и умения, полученные в результате самостоятельной деятельности студентов в этой области, еще более улучшаются. Используются независимые бизнес-формы, такие как исследовательские, лабораторные и методы распространения. В целях укрепления знаний студентам рекомендуется работать на практике свободно.

*Z.H.Nagizadeh*

**Selection of independent works based on the classification of inorganic substances**

**SUMMARY**

During the teaching of important classes of inorganic compounds, students' independent work methods are widely available. The physico-chemical properties of oxides, basic, acids and salts, general laws, methods of procurement are explained by tables, schemes.

Knowledge, skills and habits acquired as a result of independent activity of students in this regard are further improved. Independent business forms, such as research, laboratory, and distribution methods are used. In order to strengthen the knowledge, students are encouraged to work in practice freely.

**Açar sözlər:** qeyri-üzvi maddələr, tədqiqat, müstəqil iş, oksid, əsas, turşu, duz.

**Ключевые слова:** неорганические вещества, исследования, самостоятельная работа, оксид, кислоты, соли.

**Key words:** inorganic substances, research, independent work, oxide, acids, salts.